**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ilə Bolqarıstan Respublikası Müqəddəs Kiril və Mefodi Milli Kitabxanası arasında qarşılıqlı əməkdaşlıq barədə**
**ANLAŞMA MEMORANDUMU**

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Bolqarıstan Respublikası Müqəddəs Kiril və Mefodi Milli Kitabxanası (bundan sonra "Tərəflər" adlanacaq),

mövcud mədəni əlaqələr mübadiləsinin genişləndirilməsi və kitabxanaçılıq sektorunda birbaşa əməkdaşlıq üçün yeni əlaqələrin yaradılması niyyəti ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

**MADDƏ 1**

Tərəflər birgə razılaşdırılmış meyar əsasında kitabxana nəşrlərinin mübadiləsini aparacaq. Mübadilə bərabərlik prinsipinə müvafiq bir təqvim ili çərçivəsində aparılmalı və mütləqdir. Kitabxanalar cari il ərzində mübadilənin nəticəsi barədə bir-birilərini məlumatlandırmalıdırlar.

**MADDƏ 2**

Tərəflər kitabxanalararası mübadiləni hər iki ölkənin qanunvericiliyi və mövcud beynəlxalq təcrübəsi əsasında aparacaq.

**MADDƏ 3**

Tərəflər kitabxana işi sahəsində mütəxəssis mübadiləsini təşkil etməlidirlər. Mütəxəssis mübadiləsi zamanı meydana çıxan bütün xərcləri göndərən və qəbul edən tərəf qarşılamalıdır. Göndərən Tərəf şəxslərin səyahət xərclərini, qəbul edən Tərəf isə gündəlik xərclərini qarşılayacaq. Qəbul edən Tərəf bu tip səyahətləri təşkil edəcək.

**MADDƏ 4**

Tərəflər hər iki ölkəyə dair olan biblioqrafik vəsait, külliyyat və sənədlərin informasiya axtarışı üzrə mübadilə işi üzrə əməkdaşlıq etməlidirlər.

**MADDƏ 5**

Tərəflər hər iki kitabxananın direktorları tərəfindən imzalanmış müqavilə əsasında sərgi mübadilələri apara bilərlər.

## MADDƏ 6

İdarəetmə orqanları bu müqavilənin icra olunması üçün məsul şəxsləri təyin etməlidirlər.

## MADDƏ 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan ayrıca Protokollar formasında rəsmiləşdirilir və 8-ci maddənin müddəalarına uyğun olaraq qüvvəyə minir.

## MADDƏ 8

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti barədə ən azı altı ay öncədən digər Tərəfə yazılı bildiriş göndərmədiyi təqdirdə, avtomatik olaraq növbəti beş il müddətinə qüvvədə qalır.

_**Sofiya**_ şəhərində, "_17_"_aprel_ 2015-ci il tarixində, hər biri Azərbaycan, bolqar və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edir.

| | |
|---|---|
| **M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası adından** | **Bolqarıstan Respublikası Müqəddəs Kiril və Mefodi Milli Kitabxanası adından** |